Bakı Araşdırmalar İnstitutu

# 2023-cü İLİN DÖVLƏT BÜDCƏSİ VƏ BÜDCƏDƏNKƏNAR FONDLAR

# İQTİSADİ BÜLLETEN

BAKI – 2022

# MÜNDƏRICAT

**Giriş** **3**

**2023-cü il dövlət büdcəsinin gəlir və xərcləri** 4

2023-cü il dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas meylləri 5

**2023-cü il dövlət büdcəsi xərclərinin strukturunun analizi** 14

Xərclərə dair qısa icmal 14

İdarəetmə xərcləri 15

Ölkədə ictimai asayişin və təhlükəsizliyin təmin olunması ilə bağlı xərclər 16

Sosial xərclər 17

İqtisadiyyatın dəstəklənməsilə bağlı xərclər 22

2023-cü il dövlət büdcəsi xərclərinin iqtisadi strukturu 25

**Büdcədənkənar fondlar** 26

Dövlət Neft Fondu 26

Dövlət Sosial Müdafiə Fondu (DSMF) 28

İşsizlikdən Sığorta Fondu 30

İcbari Tibbi Sığorta Fondu 32

# Giriş

Azərbaycan Respublikasının 2023-cü il üzrə dövlət büdcəsi və büdcədənkənar fondları haqqında qanunlar ötən ilin son iş günü – dekabrın 30-da ölkə prezidenti tərəfindən təsdiq edildi. Rusiya-Ukrayna müharibəsi fonunda enerji daşıyıcılarının bahalaşması və bunun dünya bazarında yüksək inflyasiya təzyiqləri yaratması hökumətləri sərt pul-kredit siyasəti yürütməyə vadar edir. Azərbaycan hökuməti də həm monetar, həm də fiskal siyasətinə yenidən baxmaq məcburiyyətindədir. Bir tərəfdən enerji daşıyıcılarının bahalaşması Azərbacanın neft-qaz gəlirlərini əhəmiyyətli dərəcədə artıraraq büdcənin gəlir imkanlarını artırır, digər tərəfdən bahalaşmanın sosial təsirini azaltmaq üçün hökumətin sosial xərcləri artırması büdcə üçün əlavə yükə çevrilir. Təsadüfi deyil ki, 2023-cü ilin dövlət büdcəsində sosialyönlü xərclərin payı 45,7%-ə yüksəlib. Üstəgəl, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması son 3 ildə büdcə üçün əlavə xərc istiqaməti yaradıb.

"Büdcə sistemi haqqında" Qanuna 9 dekabr 2022-ci il tarixində edilmiş dəyişikliyə əsasən, icmal büdcənin gəlir və xərclərinə İcbari Tibbi Sığorta Fondunun da gəlir və xərcləri daxil edilib və əvvəlki dövlərdən fərqli olaraq, digər büdcədənkənar fondlar kimi İcbari Tibbi Sığorta Fondunun da gəlir və xərcləri prezident tərəfindən ayrıca təsdiq olunmağa başlayıb.

Bu baxımdan hökumətin 2023-cü ildə icra etməyə başladığı dövlət büdcəsinin və büdcədənkənar fondların gəlir və xərcləri təhlil edilərək əvvəlki illə müqayisə olunub.

Bülleten 3 əsas bölmədən ibarətdir.

Birinci bölmədə 2023-cü il üçün dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas meylləri göstərilir. Bu bölmədə büdcə gəlirlərinin mənbələr üzrə strukturu və mənbələrin 2022-ci illə müqayisəsi, dövlət büdcəsi gəlirlərinin sektorlar və təşkilatlar üzrə quruluşu açıqlanıb. Bölmədə eyni zamanda dövlət büdcəsi gəlirlərinin vergilər və qeyri-vergi gəlirləri üzrə quruluşu, mal və xidmətlərdən vergilərin tərkibi və strukturu barədə məlumatlar yer alıb.

Bülletenin ikinci bölməsində oxuculara 2023-cü il dövlət büdcəsi xərclərinin strukturunun analizi təqdim edilir. Bu bölmədə xərclərə dair qısa icmalı ilə yanaşı, idarəetmə, ictimai asayişin və təhlükəsizliyin təmin olunması ilə bağlı xərclər, sosial xərclər və iqtisadiyyatın dəstəklənməsi ilə bağlı xərclər analiz olunur. Bölmədə həmçinin funksional bölgüdən əlavə, 2023-cü il dövlət büdcəsi xərclərinin iqtisadi strukturuna da toxunulur.

Bülletenin üçüncü bölməsində büdcədənkənar dövlət fondlarının gəlir və xərcləri təhlil edilir. Ölkənin icmal büdcəsinin gəlir və xərcləri tərtib edilərkən büdcədənkənar dövlət fondlarının gəlir və xərcləri də nəzərə alınır. Bu baxımdan hazırda fəaliyyət göstərən 4 büdcədənkənar dövlət fondunun - Azərbaycan Respublikasının Dövlət Neft Fondunun, Dövlət Sosial Müdafiə Fondunun, İşsizlikdən Sığorta Fondunun və İcbari Tibbi Sığorta Fondunun 2023-cü il büdcəsinin gəlir və xərcləri əvvəlki illə müqayisə olunur və dəyişikliklər qeyd edilir.

# 2023-cü il dövlət büdcəsinin gəlir və xərcləri

Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa (9 dekabr 2022-ci il tarixli) əsasən 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30 milyard 774,0 milyon manat, xərcləri 33 milyard 353,3 milyon manat, dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 milyard 579,3 milyon manat proqnozlaşdırılmışdır.

2023-cü il dövlət büdcəsinin gözlənilən gəlirlərinin məbləği proqnozlaşdırılan illik Ümumi Daxili Məhsulun (ÜDM) nisbəti 26,2%-i, büdcə xərclərinin məbləği ÜDM-in 28,4%-i, büdcə kəsirinin yuxarı həddi isə ÜDM-in 2.2%-i qədərdir.

**Diaqram 1. 2023-cü il dövlət büdcəsinin gəlir və xərclər proqnozu, mln. manat**




2023-cü ildə dövlət büdcəsinin gəlirləri 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 1 milyard 576,2 milyon manat, yaxud 5,4 faiz, 2021-ci il dövlət büdcəsi gəlirlərinin faktiki səviyyəsi ilə müqayisədə 4 milyard 377,7 milyon manat, yaxud 16,6 faiz çoxdur. 2023-cü ildə dövlət büdcəsinin xərcləri isə 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 1 milyard 049,5 milyon manat, yaxud 3,2 faiz, 2021-ci il dövlət büdcəsi xərlərinin faktiki səviyyəsi ilə müqayisədə 5 milyard 930,9 milyon manat, yaxud 21,6 faiz çoxdur (*diaqram 2*).

**Diaqram 2. 2023-cü il dövlət büdcəsinin əsas göstəricilərinin 2021-ci ilin faktiki icrası və 2022-ci ilin proqnozu ilə müqayisəsi, mln. manatla**



2023-cü il üçün dövlət büdcəsinin gözlənilən kəsirinin yuxarı həddi 2021-ci il dövlət büdcəsində qeydə alınan faktiki kəsirdən 1 milyard 553,2 milyon manat, yaxud 51,4% çox, 2022-ci il üçün proqnozlaşdırılan kəsirdən isə 526,7 milyon manat, yaxud 17.0% azdır.

## 2023-cü il dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas meylləri

*Büdcə gəlirlərinin mənbələr üzrə strukturu*. 2023-cü il dövlət büdcəsi gəlirlərinin tərkibində ən çox paya malik üç mənbə bunlardır:

1) Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) transferti – 11280,0 mln. manat, yaxud 36,7 faiz;
2) Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi üzrə daxilolmalar – 6417,0 mln. manat, yaxud 20,9 faiz;
3) Əlavə dəyər vergisi üzrə daxilolmalar – 6042,4 mln. manat, yaxud 19,6 faiz.

Bu üç mənbədən daxilolmalar 2023-cü ildə ümumi büdcə gəlirlərinin 77,2 faizi qədər olacaq. Bu, büdcə gəlirlərində çox yüksək bir təmərküzləşmənin olduğunu əks etdirir.

Büdcə gəlirlərindəki payına görə növbəti üç yer aşağıdakı gəlir mənbələrinə məxsusdur:

4) Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar- 1680,0 mln. manat, yaxud 5,5 faiz;
5) Aksizlər üzrə daxilolmalar – 1377,8 mln. manat, yaxud 4,5 faiz;
6) Gömrük rüsumları üzrə daxilolmalar – 1348,4 mln. manat, yaxud 4,3 faiz.

Bu altı mənbədən daxil olacaq vəsaitlər 2023-cü il dövlət büdcəsi gəlirlərinin 91,5 faizini əmələ gətirəcək.

Bunlardan başqa 2023-cü ilin dövlət büdcəsi gəlirlərinin 2.4%-i, yaxud 726,5 mln. manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən əldə etdikləri vəsaitlərdən, 1.0%-i yaxud, 321,2 mln. manatı səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlərdən, 1.0%-i hüquqi şəxslərin əmlak vergisi, 0,9 %-i sadələşdirilmiş vergi (278,6 mln. manat) və dövlət rüsumu (272,0 mln. manat), 0,5%-i (160,4 mln. manat) mədən vergisi üzrə daxilolmalardan formalaşacaq (*diaqram 3*).

**Diaqram 3. 2023-cü il dövlət büdcəsi gəlirlərinin daxilolma mənbələri üzrə quruluşu, yekuna görə faizlə**




***Büdcə gəlirlərinin strukturunun 2022-ci ilin proqnozu ilə müqayisəsi.*** 2023-cü il dövlət büdcəsi gəlirlərinin tərkibi və strukturunu 2022-ci il büdcə gəlirlərinin dürüstləşdirilmiş proqnozu ilə müqayisə edəndə gəlirlərin strukturunda ciddi dəyişiklik müşahidə olunmur: gəlirlərin mənbələr üzrə strukturu, demək olar ki, oxşardır (*diaqram 4*).

**Diaqram 4. 2023-cü (xarici dairə) və 2022-ci (iç dairə) illər üzrə dövlət büdcəsi gəlirlərində ayrı-ayrı gəlir mənbələrinin payı, ümumi yekunda xüsusi çəkisi, %-lə**




Baş verən dəyişikliklər sırasında ARDNF-in transfertinin büdcə gəlirlərindəki payı 2022-ci ildəki 39,4%-dən 2023-cü ildə 36,7%-ə düşməsini (yəni 2.7 faiz bəndi azalmasını), hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların büdcə gəlirlərindəki payının isə 18,1%-dən 20,9%-ə

yüksəlməsini (yəni 2,8 faiz bəndi artmasını) göstərmək olar. Daha bir diqqətçəkən məqam kimi səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə dövlət büdcəsinə daxil olacaq vəsaitin məbləğinin 2022-ci illə müqayisədə 2023-cü ildə 3 dəfə artması və bu mənbə üzrə daxilolmaların büdcə gəlirlərindəki payının 0,4%-dən 1,0%-ə yüksəlməsidir (yəni 0,6 faiz bəndi artmasıdır).

2022-ci il dövlət büdcəsi gəlirlərinin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 2023-cü ildə büdcə gəlirlərinin 1 milyard 576,2 milyon manat (yaxud 5,4% ) artması gözlənilir. Hesablamalara əsasən əvvəlki illə müqayisədə 2023-cü ilin büdcə gəlirlərində 15 mənbə üzrə cəmi 2 milyard 187,1 milyon manat artım, 4 mənbə üzrə isə cəmi 610,8 milyon manat azalma baş verəcək. Ən böyük mütləq artım hüquqi şəxslərin mənfəət vergisi üzrə gözlənilir: bu mənbə üzrə daxilolmaların 1 milyard 127,0 milyon manat, yaxud 21,3% olması proqnozlaşdırılır ki, bu da dünya bazarında təbii qazın qiymətinin artması və Şahdəniz HPBS üzrə podratçı şirkətlərin ödəyəcəkləri mənfəət vergisinin artması ilə bağlıdır. Bununla yanaşı, əvvəlki ilə müqayisədə 2023-cü ildə ƏDV üzrə daxilolmaların 323,7 mln. manat (5,7%), səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə 214,7 mln. manat (3 dəfə), fiziki şəxslərin gəlir vergisi üzrə 195,0 mln. manat (13,1%), hüquqi şəxslərin əmlak vergisi üzrə 66,8 mln. manat (28,3%), gömrük rüsumları üzrə 48,4 mln. manat (3,7%), sadələşdirilmiş vergi üzrə 43,6 mln. manat (18,6%), mədən vergisi üzrə 18,4 mln. manat (13,0%) artım proqnozlaşdırılır (*bax: cədvəl 1*).

**Cədvəl 1. 2023-cü il dövlət büdcəsi gəlirləri proqnozunun 2022-ci il proqnozu ilə müqayisəsi**

| | 2023-cü ilin proqnozu mln. manat | 2022-ci ilin proqnozu, mln. manat | 2022-ci illə müqayisədə kənarlaşma (+artım; -azalma) | |
|---|---|---|---|---|
| | | | mln. manat | faizlə |
| **Büdcə gəlirləri, cəmi** | **30774.0** | **29197.8** | **1576.2** | **105.4** |
| Fiziki şəxslərin gəlir vergisi | 1680.0 | 1485.0 | 195.0 | 113.1 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6417.0 | 5290.0 | 1127.0 | 121.3 |
| Hüquqi şəxslərin torpaq vergisi | 46.0 | 46.0 | 0.0 | 100.0 |
| Hüquqi şəxslərin əmlak vergisi | 302.8 | 236.0 | 66.8 | 128.3 |
| Əlavə dəyər vergisi | 6042.4 | 5718.7 | 323.7 | 105.7 |
| *Ölkəyə malların idxalına görə ƏDV* | *3228.1* | *3085.0* | *143.1* | *104.6* |
| Sadələşdirilmiş vergi | 278.6 | 235.0 | 43.6 | 118.6 |
| Aksizlər | 1377.8 | 1276.8 | 101.0 | 107.9 |

| | | | | |
|---|---|---|---|---|
| *Ölkəyə malların idxalına görə aksizlər* | *176.8* | *170.0* | *6.8* | *104.0* |
| Yol vergisi | 135.9 | 126.5 | 9.4 | 107.4 |
| Mədən vergisi | 160.4 | 142.0 | 18.4 | 113.0 |
| Gömrük rüsumları | 1348.4 | 1300.0 | 48.4 | 103.7 |
| Ölkədə istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt qiyməti ilə ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 112.0 | 95.4 | 16.6 | 117.4 |
| Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1.9 | 1.8 | 0.1 | 105.6 |
| Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 321.2 | 106.5 | 214.7 | 301.6 |
| ARDNF-in transferti | 11280.0 | 11517.5 | -237.5 | 97.9 |
| Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 20.0 | 16.0 | 4.0 | 125.0 |
| Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 10.0 | 9.0 | 1.0 | 111.1 |
| Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 22.0 | 21.0 | 1.0 | 104.8 |
| Dövlət rüsumu | 272.0 | 363.5 | -91.5 | 74.8 |
| Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 726.5 | 834.0 | -107.5 | 87.1 |
| 2023-cü il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun vəsaitinin qalığı | 9.0 | 183.3 | -174.3 | 4.9 |
| Sair daxilolmalar | 210.1 | 193.7 | 16.4 | 108.5 |

2022-ci ilin büdcə gəlirləri ilə müqayisədə 2023-cü ilin büdcə gəlirlərində 4 mənbə üzrə azalma gözlənilir. Ən böyük mütləq azalma ARDNF-in transfertində nəzərdə tutulur – 237,5 mln. manat, yaxud 2.1%. Ən böyük nisbi azalma isə 95,1%-lik azalma ilə məqsədli büdcə fondunun qalığı üzrə olacaq: ilin əvvəlinə bu mənbə üzrə vəsait qalığının 174,3 mln. manat azalaraq 9,0 mln. manat səviyyəsində olması gözlənilir. Bunlardan əlavə, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların əvvəlki illə müqayisədə 2023-cü ildə 107,5 mln. manat (yaxud 12,9%), dövlət rüsumundan daxilolmaların isə 91,5 mln. manat (25,2%) az olması proqnozlaşdırılmışdır.

***Dövlət büdcəsi gəlirlərinin sektorlar üzrə quruluşu***. 2023-cü il dövlət büdcəsi gəlirlərinin 53,0%-inin, yaxud 16 milyard 297,0 mln. manatının neft-qaz sektorundan, qalan 47,0%-inin, yaxud 14 milyard 477,0 mln. manatının isə qeyri neft-qaz sektorundan daxilolmalar hesabına formalaşması proqnozlaşdırılmışdır. Neft-qaz sektoru üzrə büdcə daxilolmalaırnın 11 milyard 280,0 mln. manatı (ümumi büdcə gəlirlərinin 36,7%-i) ARDNF-in transferti, 2 milyard 875,0 mln. manatı (10,9%-i) HPBS üzrə xarici podratçı şirkətlərin mənfəət vergisi üzrə daxilolmalar, 1 milyard 650,0 mln. manatı (5,4%-i) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) büdcəyə ödənişləri hesabına formalaşaşacaq (*diaqram 5*).

**Diaqram 5. 2023-cü il dövlət büdcəsi gəlirlərinin neft-qaz sektoru və qeyri-neft sektoru üzrə quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




2022-ci ilin dürüstləşdirilmiş büdcə gəlirləri proqnozu ilə müqayisədə 2023-cü ildə neft-qaz sektorundan büdcəyə daxilolmaların cəmi məbləği 759,5 milyon manat, yaxud 4,9% artacaq. Bununla belə, əvvəlki illə müqayisədə 2023-cü ildə neft-qaz sektoru üzrə daxilolmaların tərkibində iki mənbədən daxilolmaların azalması, iki mənbədən daxilolmaların isə artması gözlənilir. Belə ki, 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 2023-cü ildə Şahdəniz HPBS üzrə xarici podratçı təşkilatların mənfəət vergisi üzrə ödənişlərinin 1 milyard 265,0 mln. manat (78,6%), SOCAR-ın ödənişlərinin isə 300,0 mln. manat (22,2%) artması (*diaqram 6*), Azəri-Çıraq-Günəşli HPBS üzrə xarici podratçı təşkilatların mənfəət vergisi üzrə ödənişlərinin 568,0 mln. manat (53,6%) və ARDNF-in transfertinin isə 237,5 mln. manat (2,1%) azalması nəzərdə tutulmuşdur.

**Diaqram 6. 2022-2023-cü illər üzrə dövlət büdcəsinə birbaşa neft-qaz sektorundan vergi daxilolmalarının müqayisəsi (mln. manat)**




Yeri gəlmişkən qeyd etməliyik ki, Maliyyə Nazirliyinin məlumatına əsasən, 2023-cü il dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması zamanı neftin dünya bazar qiyməti hər barrel üçün 50 ABŞ dollarından götürülmüşdür. Amma büdcə proqnozlaşdırılması zamanı 2023-cü il üçün təbii qazın qiymətinin nə qədər götürülməsi barədə hökumət heç bir açıqlama verməmişdir. Halbuki 2023-cü ilin büdcə gəlirlərində məhz Şahdəniz HPBS üzrə gəlirlər əhəmiyyətli rola malik olduğundan, büdcə proqnozlarının təbii qazın hansı qiyməti əsasında hesablanmasının Milli Məclisə, habelə ictimaiyyətə açıqlanmasının nə qədər vacib olnması aydın görünür.

***Dövlət büdcəsi gəlirlərinin təşkilatlar üzrə quruluşu.*** 2023-cü il dövlət büdcəsi gəlirlərinin 13 milyard 402,0 mln. manatı, yaxud 43,6%-i Vergi Xidməti qurumları, 11 milyard 280,0 mln. manatı, yaxud 36,7%-i ARDNF, 4 milyard 803,3 mln. manatı, yaxud 15,6%-i Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən büdcəyə cəlb ediləcəkdir. Bundan əlavə, büdcə təşkilatlarının ödənişli xidmətlərindən əldə edilən 726,5 mln. manat da büdcə gəlirlərinə əlavə ediləcəkdir ki, bunun da büdcə gəlirlərində payı 2,4% olacaq. Büdcə gəlirlərinin qalan 562,2 mln. manatı (1,8%-i) isə sair təşkilatların payına düşəcək (diaqram 7).

**Diaqram 7. 2023-cü il dövlət büdcəsi gəlirlərinin məsul qurumlar üzrə quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 2023-cü ildə Vergi Xidməti qurumları tərəfindən toplanan vəsaitin miqdarı 1 milyard 662,0 mln. manat, yaxud 14,2%, DGK tərəfindən yığılan vəsaitin 198,3 mln manat, yaxud 4,3%, sair təşkilatların dövlət büdcəsinə cəlb edəcəkləri vəsaitin isə 60,4 mln. manat, yaxud 12,0% artması gözlənilir (*diaqram 8*).

**Diaqram 8. 2022-2023-cü illər üzrə dövlət büdcəsi gəlirlərinin təşkilatlar üzrə müqayisəsi (mln. manat)**




2023-cü il üzrə dövlət büdcəsinə proqnozlaşdırılan Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 62,6 faizi və ya 8 milyard 385 milyon manatı qeyri-neft sektorunun, 37,4 faizi və ya 5 milyard 17 milyon manatı neft sektorunun payına düşür

***Dövlət büdcəsi gəlirlərinin vergilər*** və ***qeyri-vergi gəlirləri üzrə quruluşu.*** 2023-cü ildə dövlət büdcəsi gəlirlərinin 17 milyard 901,3 mln. manatı, yaxud 58,17%-ini vergilər, qalan 12 milyard 872,7 mln. manatını, yaxud 41,83%-ini isə qeyri-vergi gəlirləri təşkil edəcək.

**Diaqram 9. 2023-cü il dövlət büdcəsinin vergi daxilolmalarının strukturu, vergi daxilolmalarının ümumi yekununda xüsusi çəkisi, faizlə**




Dövlət büdcəsinə vergi daxilolmalarının təqribən 90 faizi 2 növ vergilərdən ibarətdir: gəlirlərdən tutulan vergilər və mal və xidmətlərdən tutulan vergilər. Belə ki, büdcəyə vergi daxilolmalarının 45,2%-i, yaxud 8 milyard 97,0 mln. manatı gəlir vergilərinin, 44,7%-i, yaxud 7 milyard 995,1 mln. manatı isə mal və xidmətlərə görə vergilərin payına düşür. Xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxilolmaların 1 milyard 460,4 mln. manat olması gözlənilir ki, bu da ümumi vergi daxilolmalarının 8,2%-i qədərdir (diaqram 9).

2023-cü ildə mülkiyyətdən vergilər formasında dövlət büdcəsinə 348,8 mln. manat daxil olacağı proqnozlaşdırılır.

*Gəlirlərdən vergi daxilolmalarının tərkibi və quruluşu.* 8 milyard 97,0 mln. manatlıq gəlir vergilərinin 6 milyard 417,0 mln. manatı və yaxud 79,35-i hüquqi şəxslərin mənfəət vergisinin, qalan 1 milyard 680,0 mln. manatı və yaxud 20,7%-i isə fiizki şəxslərin gəlir vergisinin payına düşür. Yuxarıda artıq qeyd etdiyimiz kimi, 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 2023-cü ildə hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların 1 milyard 127,0 mln. manat, yaxud 21,3%, fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların isə 195,0 mln. manat, yaxud 13,1% artması nəzərdə tutulur.

Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların 86,5%-i, yaxud 1 milyard 454,0 mln. manatı muzdlu işlə əlaqədar gəlir vergisi, 6,9%-i (115,5 mln. manatı) muzdlu işə aid olmayan fəaliyyətdən

gəlir vergisi, qalan 6,6%-i (110,5 mln. manatı) fiziki şəxslərin digər gəlirlərindən tutulan gəlir vergisinin payına düşür.

Muzdla işlə əlaqədar gəlir vergisi üzrə daxilolmaların 68,9%-i, yaxud 1 milyard 2,5 mln. manatı bu və ya digər formada dövlət sektorundan formalaşacaq: bunun 561,0 mln. manatı büdcə təşkilatlarında, 295,0 mln. manatı səhmlərinin 51%-i və daha çox hissəsi dövlətə məxsus müəssisələrdə, 140,0 mln. manatı dövlət adından yaradılan publik hüquqi şəxslərdə, qalan 6,5 mln. manatı isə dövlətə məxsus fondlardan maliyyələşən təşkilatlarda muzdla işləyənlərin gəlirlərindən tutulacaq vergilərdir.

Muzdla işlə əlaqədar gəlir vergisi üzrə daxilolmaların 337,5 mln. manatı HPBS üzrə podratçı və subpodratçı şirkətlərdə çalışanların muzdlu işlə bağlı gəlirlərindən tutulacaq vergilər hesabına formalaşacaq (*cədvəl 2*).

**Cədvəl 2. 2023-cü il dövlət büdcəsinə muzdlu işlə əlaqədar gəlir vergisi üzrə daxilolmaların tərkibi və quruluşu**

| | mln. manat | ümumi yekunda xüsusi çəkisi, % |
|---|---|---|
| Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə daxilolmalar, cəmi | 1454.0 | 100.0 |
| Neft-qaz sektorunda fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicələri üzrə | 91.0 | 6.3 |
| HPBS üzrə podratçı təşkilatlarda muzdlu işlər üzrə | 137.5 | 9.5 |
| HPBS üzrə xarici və yerli subpodratçı təşkilatlarda muzdlu işlər üzrə | 200.0 | 13.8 |
| Büdcə təşkilatlarında işləyən muzdlu işlə əlaqədar | 561.0 | 38.6 |
| Dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə | 140.0 | 9.6 |
| Dövlət müəssisələri üzrə | 295.0 | 20.3 |
| Dövlətə məxsus fondlardan maliyyələşən digər qurumlarda çalışanların muzdlu gəlirlərindən vergilər | 6.5 | 0.4 |
| Digərləri üzrə | 23.0 | 1.6 |

2023-cü ildə hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcə daxilolmalarının yarıdan çoxu – 52,5%-i (3 milyard 367,0 mln. manatı) HPBS üzrə xarici podratçı şirkətlərin ödəyəcəkləri vergilərdir. Yuxarıda artıq vurğulandığı kimi, bunun 2,9 milyard manatı Şahdəniz HPBS üzrə daxilolmalardan gözlənilir. Əgər HPBS üzrə subpodratçı şirkətlərin (150,0 mln. manat) və SOCAR-ın ödəyəcəyi

mənfəət vergisi də nəzərə alınarsa, onda bu mənbə üzrə bütün daxilolmalaırn təqribən 60%-i birbaşa neft-qaz sektorundan formalaşacağını görürük (*diaqram 10*).

**Diaqram 10. 2023-cü il dövlət büdcəsinə hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalaırn tərkibi və quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




Bu mənbə üzrə büdcə daxilolmalarının 1 milyard 837,5 milyon manatı rezident hüquqi şəxslər, 600,0 mln. manatı qeyri-rezident hüquqi şəxslərin mənfəətindən hesablanan vergilər olacaq.

***Mal və xidmətlərdən vergilərin tərkibi və strukturu.*** Buraya daxil olan vergilər üzrə 2023-cü il dövlət büdcəsinə ümumilikdə 7 milyard 995,1 mln. manat daxilolma proqnozlaşdırılır. Bunun 6 milyard 42,3 mln. manatı (yaxud 75,6%-i) ƏDV-nin, 1 milyard 377,8 mln. manatı (17,2%-i) aksizlərin, 278,6 mln. manatı (3,5%-i) sadələşdirilmiş verginin, 160,4 mln. manatı (2,0%-i) mədən vergisinin və qalan 135,9 mln. manatı (1,7%-i) isə yol vergisinin payına düşür.

ƏDV üzrə cəmi daxilolmaların yarıdan çoxu – 53,4%-i, yaxud 3 milyard 228,1 mln. manatı ölkəmizə idxal edilən mallara görə, qalan 46,6%-i (2 milyard 814,3 mln. manatı) ölkə ərazisində mal, iş və xidmətlərə görə əlavə dəyər vergisindən formalaşacaq.

2023-cü ildə aksizlərdən dövlət büdcəsinə daxil olması gözlənilən 1 milyard 377,8 mln. manatın 87,2%-i və yaxud 1 milyard 201,0 mln. manatı ölkəmizdə istehsal edilən məhsullar üzrə aksizlərdir. Bunun 657,0 mln. manatı neft məhsullarına, 450,1 mln. manatı isə tütün məmulatlarına hesablanan aksizlərdən ibarət olacaq.

İdxal mallarına görə aksizlər üzrə 176,8 mln. manatlıq daxilolmaların 60,0 mln. manatı minik avtomobilləri və avtobuslara, 45,0 mln. manatı tütün məmulatlarına, 60 mln. manatdan bir qədər çoxu müxtəlif növ spirtli içkilərə tətbiq olunan aksizlərdən toplanacaq.

***Xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxilolmaların tərkibi və strukturu.*** 2023-cü ilin dövlət büdcəsi gəlirlərinin 1 milyard 460,4 mln. manatı xarici iqtisadi fəaliyyətlə bağlı vergi və ödənişlərdən formalaşacaq. Bunun 1 milyard 254,4 mln. manatı (85,9%-i) idxal rüsumları hesabına toplanacaq. Qalan vəsaitin 112,0 mln. manatı qiyməti tənzimlənən məhsulların (əsasən xam neft, təbii qaz və neft məhsullarının) ixracı zamanı məhsulların kontrakt qiyməti ilə ölkədaxili müəssisə topdansatış qiyməti arasındakı fərqdən büdcəyə ödənişlərdən və 90,1 mln. manatı idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumlarından toplanacaq.

***Digər gəlirlərin tərkibi.*** 2023-cü il dövlət büdcəsi gəlirlərinin 12 milyard 872,2 mln. manatının (ümumi büdcə gəlirlərinin 41,8%-inin) digər gəlirlərdən formalaşması proqnozlaşdırılır. Bunun 11 milyard 637,8 mln. manatı mülkiyyətdən olan gəlirlərdir. Belə gəlirlərin 11 milyard 280,0 mln. manatı (yaxud 96,9%-i) ARDNF-in transfertidir. Mülkiyyətdən gəlirlərin 321,2 mln. manatı dövlət müəssisələrindən alınan dividendlərdir ki, bunun da 101,2 mln. manatı dövlət maliyyə təşkilatlarından (məsələn, Azərbaycan Beynəlxalq Bankı, Azər-Türk Bank və s.), 220,0 mln. manatı isə dövlət qeyri-maliyyə təşkilatlarından alınan dividendlər olacaq.

Digər gəlirlərin 1 milyard 196,3 mln. manatı mal və xidmətlərin satışından daxilolmalar olacaq. Bunun 272,0 mln. manatı (22,7%-i) dövlət rüsumu şəklində, 197,8 mln. manatı (16,5%-i) dövlət qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən əldə edilən gəlirlər formasında, 726,5 mln. manatı (60,7%-i) büdcə təşkilatlarının ödənişli xidmətləri, habelə maliyyə sanksiyaları və inzibati cərimələrin büdcəyə alınan hissələri formasında daxilolmalardan ibarətdir.

Digər gəlirlərin daha 38,6 mln. manatı cərimə və sanksiyalar üzrə daxilolmalar olacaq ki, bunun da 21,15 mln. manatı (54,8%-i) vergi qanunvericiliyinin pozulmasına görə daxilolmalardan ibarətdir.

# 2023-cü il dövlət büdcəsi xərclərinin strukturunun analizi

## Xərclərə dair qısa icmal

2023-cü ilin dövlət büdcəsinin xərcləri 33353,3 mln. manat proqnozlaşdırılır və bu 2022-ci ilin gözlənilən icra göstəricisindən 2077,9 mln. manat və ya 6,2% çoxdur.

**Diaqram 11/ Dövlət büdcəsi xərclərinin istiqamətlər üzrə bölgüsü,**
***2022-2023-cü illər (mln. manatla)***




Xərclərdə ən yüksək artım sosial müdafiə istiqaməti üzrə proqnozlaşdırılır – 796,3 mln. manat və ya 22%. Təhsil xərcləri üzrə 691,9 mln. manat (18,9%), müdafiə və milli təhlükəsizlik üzrə 449,8 mln. manat (9,2%), məhkəmə və hüquq-mühafizə üzrə 330,3 (13,6%) mln. manat, səhiyyə üzrə 262,5 mln. manat (16%), kənd təsərrüfatı üzrə 219,7 mln. manat (22,4%), mədəniyyət və incəsənət bölməsi üzrə 108,9 mln. manat (24%), iqtisadi fəaliyyət bölməsi üzrə 100,3 mln. manat (1,5%) artımla, əsas bölməyə aid edilməyən xidmətlər bölməsi 596,5 mln. manat (31%), ümumi dövlət xidmətləri üzrə 451,4 mln. manat (10,6%) azalma ilə proqozlaşdırılıb.

Ayrı-ayrı xərc istiqamətlərinin büdcə payında da dəyişiklik müşahidə olunur. Məsələn, 2022-ci illə müqayisədə 2023-cü ildə təhsil xərclərinin ümumi büdcə xərclərində xüsusi çəkisi 11,9%-dən

13,3%-ə, sosial müdafiə xərclərinin payı 11,6%-dən 13,3%-ə, məhkəmə və hüquq-mühafizə orqanları üzrə xərclərin payı 7,8%-dən 8,2%-ə, müdafiə xərclərinin payı 15,6%-dən 16%-ə, kənd təsərrüfatı xərclərinin payı isə 3,1%-dən 3,6%-ə yüksəlib.

**Diaqram 12. Ayrı-ayrı xərc istiqamətlərinin büdcədə payının dəyişməsi, *2022-2023-cü illər***




Öz növbəsində, müqayisə olunan dövr üzrə ümumi dövlət xidməti xərclərinin payı 13,6%-dən 11,4%-ə, iqtisadi fəaliyyətlə bağlı xərclərin xüsusi çəkisi 21,7%-dən 20,7%-ə, əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərin payı isə 6,2%-dən 4%-ə enmişdir.

## İdarəetmə xərcləri

Mərkəzi və yerli dövlət idarəetmə strukturlarının fəaliyyətilə bağlı xərclər *Ümumi dövlət xidməti xərcləri* funksional bölməsi vasitəsilə bölüşdürülür. Bölmə üzrə xərclər mərkəzi hakimiyyət strukturlarının və yerli icra hakimiyyəti orqanlarının saxlanması, dövlət borcunun ödənməsi, seçki tədbirlərinin və beynəlxalq tədbirlərin maliyyələşdirilməsi, büdcələrarası transfertlərin və elmin maliyyələşdirilməsi ilə bağlı istiqamətləri əhatə edir.

**Diaqram 13. Ümumi dövlət xidməti xərclərinin strukturu, mln. manatla**




2023-cü ilin dövlət büdcəsində mərkəzi hakimiyyət orqanlarının saxlanması üçn 1568,8 mln. manat nəzərdə tutulub ki, bu 2022-ci ilin gözlənilən icra göstəricisinə nisbətən 112,6 mln. manat (7,8%) çoxdur. Öz növbəsində, bu strukturlar içərisində Prezident Administrasiyasının saxlanmasına 220,4 mln. manat, Milli Məclisin saxlanmasına 53,2 mln. manat, Nazirlər Kabinetinin saxlanmasına 30,8 mln. manat ayrılması nəzərdə tutulur.

Dövlət borcuna xidmət xərcləri 2022-ci ilin gözlənilən göstəricinə nisəbətən 778,2 mln. manat (43,6%) az proqnozlaşdırılıb və bu istiqamətə mütləq ifadədə 1005 mln. manat ayrılması nəzərdə tutulur.

Beynəlxalq münasibətlərlə bağlı xərclər 472,4 mln. manat (əvvəlki maliyyə ili müqayisədə 93,2 mln. manat və ya 25,7% çox) proqnozlaşdırılır. Bu vəsaitin 220 mln. manatı beynəlxalq tədbirlərin təşkilinə, 145,9 mln. manatı xaricdəki diplomatik strukturların saxlanmasına, 75,5 mln. manatı isə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulmasına yönəldiləcək.

Büdcələrarası transfertlər üçün 489,4 mln. manat (2022-ci ilə nisbətən 25,2 mln. manat çox) nəzərdə tutulur. Həmin məbləğin 482,4 mln. manatı Naxçıvan MR-na, 7,0 mln. manatı isə bələdiyyə büdcələrinə ayrılacaq.

Bölmə üzrə xərclərin 1253 mln. manatı və ya 33%-i əmək ödənişinə yönəldiləcək ki, bu da 2022-ci ilin göstəricisinə nisbətən 98,2 mln. manat (8,5%) çoxdur.

## Ölkədə ictimai asayişin və təhlükəsizliyin təmin olunması ilə bağlı xərclər

2023-cü ilin dövət büdcəsindən məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokororluq oqranlarının saxlanmasına 2762,9 mln. manat nəzərdə tutulur. Bu, əvvəlki maliyyə ili üzrə gözlənilən icra göstəricisindən 330,3 mln. manat (13,6%) çoxdur. Bölmə üzrə xərclərdən məhkəmə hakimiyyəti üçün 145,6 mln. manat (əvvəlki ilə nisbətən 14,6 mln. manat çox), hüquq-mühafizə orqanlarının

saxlanmasına 2059,8 mln. manat (əvvəlki ilə nisbətən 276,1 mln. manat çox), prokurorluq oranlarının maliyyələşdirilməsinə isə 124 mln. manat (əvvəlki ilə nisbətən 17,7 mln. manat çox) vəsait ayrılacaq.

**Diaqram 14. Məhkəmə hakimiyyəti, hüquq mühafizə, prokurorluq, müdafiə və milli təhlükəsizlik üzrə xərclər, mln. manatla**




Müdafiə və milli təhlükəsizlik bölməsi üzrə 5331,2 mln. manat proqnozlaşdırılır ki, bu əvvəlki maliyyə ilinin gözlənilən göstəricisilə müqayisədə 449,8 mln. manat (9,2%) çoxdur.

## Sosial xərclər

Dövlət büdcəsinin sosial xərcləri əsasən 4 funksional bölməni əhatə edir: (i) təhsil, (ii) səhiyyə, (iii) sosial müdafiə, (iv) mədəniyyət, incəsənət və idman.

2023-cü ildə təhsil funksional bölməsi üzrə 4423,1 mln. manat xərc proqnozlaşdırılır ki, bu 2022-ci ilin gözlənilən icrası ilə müqayisədə 692 mln. manat və ya 18,5% çoxdur. Həmin vəsaitin 3076,9 mln. manatı (69,6%-i) əmək ödənişi xərcləridir. Bu xərclər əvvəlki maliyyə ilinə nisbətən 476,7 mln. manat (18,3%) çoxdur.

Təhsil xərclərinin 5 əsas təhsil pilləsi arasında bölgüsündə ümumi təhsil ilk yerdə dayanır: növbəti il bu təhsil pilləsi üzrə dövlət büdcəsindən 2099,7 mln. manat (əvvəlki dövrə nisbətən 92,3 mln. manat çox) ayrılması nəzərdə tutulur. Məktəbəqədər təhsilə 404,8 mln. manat və ya ötən dövrlə müqayisədə 42,9 mln. manat (11,9%) çox vəsait ayrılacaq. Ali təhsil pilləsi üzrə ümumilikdə 328,3 mln. manat (2022-ci ilə nisəbətən 19,7 mln. manat çox) xərc proqnozlaşdırılır ki, bu vəsaitin 257,7 mln. manatı Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 saylı qərarına uyğun olaraq bakalavriat və magistratura pillələri üzrə dövlət sifarişi əsasında təhsil alanların xərclərini qarşılamağa xərclənəcək. Bu göstərici 2022-ci il üzrə 250,8 mln. manat təşkil edir. Ali təhsil pilləsi üçün dövlət sifarişi əsasında təhsil alanlar üçün nəzərdə tutulan bu məbləğdən savayı

proqnozlaşdırılan 70,6 mln. manatlıq hissə əsasən 4 universitetə – 21,2 mln. manat Milli Aviasiya Akademiyasına, 24,8 mln. manat ADA universitetinə, 7,7 mln. manat Moskva Tibb Universitetinin Bakı filialına, 13,0 mln. manat isə Moskva Dövlət Universitetinin Bakı filialına çatacaq.

Orta ixtisas təhsili üzrə 2,9 mln. manat artımla 86,7 mln. manat, peşə təhsili xərcləri isə 2,8 mln. amanat artımla 64,1 mln. manat səviyyəsində proqnozlaşdırılıb.

**Diaqram 15. Əsas təhsil pilləri üzrə xərclərin bölgüsü, mln. manatla**




Bu pillələr üzrə xərclər dövlət büdcəsinin ümumi təhsil xərclərinin 65,%-nə bərabər olmaqla mütləq ifadədə 2892,9 mln. manatdır. Gələn il üçün yerdə qalan 1530,2 mln. manat təhsil xərcinin bölgüsü isə aşağıdakı kimidir:

- Əlavə təhsil -11,8 mln. manat. Bura bir sıra ali dövlət orqanlarının nəzdində fəaliyyət göstərən təhsil-tədris strukturlarının (məsələn, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyası, Maliyyə Nazirliyinin Elmi-Tədris Mərkəzi, Həkimləri Təkmilləşdirmə İnstitutu, Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi) saxlanması daxildir.
- Təhsil sahəsində tətbiqi tədiqiqatlar – 6,8 mln. manat. Bura bəzi tədqiqat mərkəzlərinin (məsələn, Təhsil İnstutu, Bakı Dövlət Universiteti Elmi Tədqiqat İnstututu) saxlanması daxildir.
- Tələbə təqaüdləri – 149,1 mln. manat. Bura bütün təhsil pillələri üzrə təqaüd alan tələbələrə sosial ödənişlər daxildir.
- Mədəniyyət Nazirliyi vasitəsilə uşaq məktəblərinin saxlanması xərcləri – 175,5 mln. manat. Bura uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərilə bağlı xərclər daxildir
- Təhsil müəssisələrinin büdcədənkənar xərcləri – 25,1 mln. manat. Bura təhsil müəssisələrinin büdcədənkənar gəlirlərinin dövlət büdcəsinə mədaxil edilən hissəsinin xərclənməsi daxildir.

- *2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə təhsillə bağlı hədəflərin reallaşdırılması üçün 178,9 mln. manat. Bu vəsaitin konkret hədəflər üzrə bölgüsü büdcə sənədində əks olunmayıb.
- Məktəbdənkənar təhsil müəssisələrinin saxlanması xərcləri – 65,2 mln. manat
- Daxili İşlər Nazirliyinin sərəncamında olan məktəbəqədər, ali və digər təhsil müəsssilərinin saxlanması xərcləri – 16,4 mln. manat. Bura Polis Akademiyası, Serjant Məktəbi və məktəbəqədər təhsil müəsissiələri ilə bağlı xərclər daxildir;
- Elm və Təhsil Nazirliyi vasitəsilə bir sıra proqram və tədbirlərin maliyyəşdirilməsi – 660,5 mln. manat. Bura dərsliklərin çapı, innovasiyalar üzrə qrantların verilməsi, informasiya-kommunikasiya texnologiyaları ilə bağlı təlimlərin təşkili, peşə təhsili ilə bağlı kurikulumların hazırlanması və s. üzrə müxtəlif proqramların maliyyələşdirilməsi ilə bağlı xərclər, habelə Uşaq-Gənclər İdman-Şahmat məktəblərinin və Uşaq-Gənclər İnkişaf mərkəzlərinin, ərazi maliyyə hesablaşma mərkəzlərinin saxlanması xərcləri daxildir;
- Təhsil sistemində əməyin ödənişi xərclərinin tənzimlənməsilə bağlı xərclər- 171,9. Büdcə sənədində əmək haqqının tənzimlənməsi xərclərinin konkret təhsil pillələri üzrə bölgüsü bardə məlumat əks olunmayıb.
- Digər istiqamətlər üzrə xərclər - 69 mln. manat. Bura müxtəlif köməkçi bölmələr daxilində təhsillə bağlı fərqli tədbirlərin maliyyəşdirilməsi xərcləri daxildir.

Büdcənin sosialyönümlü xərclərinin 2-ci mühüm istiqaməti sosial müdafiə tədbirlərinin maliyyələşdirilməsidir. 2023-cü ildə bu istiqamətə 4415,9 mln. manat və ya əvvəlki maliyyə ilinin gözlənilən icrasından 796,3 mln. manat (22%) çox vəsait proqnozlaşdırılır. Əsas sosial müdafiə tədbirləri üzrə proqnozlşadırılan xərclərin məbləği aşağıdakı kimidir:

- Ünvanlı dövlət sosial yardımı – 277,7 mln. manat (əvvəlki ilə nisbətən 45 mln. manat və ya 19,4% çox);
- Aztəminatlı ailələrin uşaqlarına verilən uşaq müavinətləri – 15,2 mln. manat (əvvəlki ilə nisbətən 15 mln. manat və ya 11,2% çox). Bura şəhidlərin, müharibədə və 20 Yanvar hadisələrində əlil olanların, müddətli hərbi xidmət keçənlərin, 1 yaşadək uşaqlı aztəminatlı ailələrin övladlarına ödənən müavinətlər daxildir;
- Qəyyumluğa görə müavinət – 0.354 mln. manat;
- Dəfn üçün müavinət – 2,6 mln. manat;
- Uşağın doğulmasına görə birdəfəlik müavinət – 21,990 mln. manat (əvvəlki ilə nisbətən 0,8 mln. manat və ya 3,7% çox);
- Əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər – 2,4 mln. manat;

- Haqqı ödənilən ictimai işlərin təşkili ilə məşğulluğun dəstəklənməsi – 265,8 mln. manat (əvvəlki ilə nisbətən 21,7 mln. manat və ya 8,9% çox);
- Yaşa görə müavinət – 296,6 mln. manat (əvvəlki ilə nisbətən 35,9 mln. manat və ya 13,8% çox);
- Əlilliyə görə müavinət – 319,7 mln. manat (əvvəlki ilə nisbətən 19,5 mln. manat və ya 6,5% çox);
- Sağlamlıq imkanları məhdud 16 yaşadək uşaqlara qulluqla əlaqədar müavinət - 131,2 (əvvəlki ilə nisbətən 3,4 mln. manat və ya 2,6% çox);
- Ailə başçısını itirməyə görə müavinət- 72,3 mln. manat (əvvəlki ilə nisbətən 2,9 mln. manat və ya 3,3% çox);
- Təqaüdlər – 555,9 mln.manat (əvvəlki ilə nisbətən 16,4 mln. manat və ya 3% çox). Bura Milli Qəhrəmanlara, şəhid ailələrinə, eləcə də 20 Yanvar şəhidlərinin ailələrinə verilən təqaüdlər, fərdi təqaqüdlər, ölkənin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş müharibə veteranlarına, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsində olmuş müxtəlif şəxslərə, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə, I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə verilən təqaüdlər, habelə ümumi xəstəliklər, hərbi xidmət dövründə xəstələnmə , əmək xəsarəti və peşə xəstəliyi , hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar təqaüdlər daxildir.
- Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təşkili xərcləri – 366,7 mln. manat (əvvəlki ilə nisbətən 10,2 mln. manat və ya 2,9% çox).
- Dövlət Sosial Müdafiə Fonduna transfert – 1467,7 mln. manat (əvvəlki ilə nisbətən 272,6 mln. manat və ya 22,8% çox).
- *2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə sosial müdafiə ilə bağlı hədəflərin reallaşdırılması üçün – 454,0 mln. manat.

Büdcənin sosialyönümlü xərclərinin 3-cü istiqaməti səhiyyə tədbirlərinin maliyyələşdirilməsidir. 2023 il üzrə əhalinin sağlamlığının qorunması üçün dövlət büdcəsinin xərcləri əvvəki ilin gözlənilən icrasına nisbətən 262,5 mln. manat (16%) artırılaraq 1906,4 mln. manata çatdırılıb. Səhiyyə xərclərinin strukturunda əsas yeri icbari tibbi sığorta mexanizminin tətbiqi ilə bağlı İcbari Tibbi Sığorta Agentliyinə transfertlər tutur – gələn il bu istiqamətə 1263,8 mln. manat (əvvəlki

ilə nisəbətən 183,2 mln. manat və ya 17% çox) vəsait nəzərdə tutulur. Agentliyə transfertlər ümumi səhiyyə xərclərinin 66,3%-ni təşkil edir.

*2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə sosial müdafiə ilə bağlı hədəflərin reallaşdırılması üçün 73,0 mln. manat xərclənməsi nəzərdə tutulur.

Xəstəxanaların saxlanmasına 171,3 mln. manat ayrılması nəzərdə tutulur. Öz növbəsində, bu vəsaitin 2,1 mln. manatı ümimi təyinatlı, 26,5 mln. manatı xüsusiləşdirilmiş xəstəxanalara, 8,3 mln. manatı bərpa-müalicə sanatoriyalarına, 48,3 mln. manatı sanitar-epidomoloji xidmətə, 10,5 mln. manat Xüsusi Tibb Xidmətinə, 13,8 mln. manatı müxtəlif qurumların tərkibindəki tibb mərkəzlərinə, 45,7 mln. manatı Milli Onkologiya Mərkəzinə, 8,4 mln. manatı Milli Oftalmologiya Mərkəzinə, 6,1 mln. manatı Bakı Sağlamlıq Mərkəzinə ayrılacaq. Səhiyyə müəssisələrinin büdcədənkənar gəlirlərinin büdcəyə mədaxil olunan hissəsi hesabına formalaşan büdcədənkənar xərclərin məbləği 12,3 mln. manat olacaq. *Xəstəxana* köməkçi bölməsi üzrə bütün xərclərin 97,8 mln. manatına Səhiyyə Nazirliyi sərəncam verəcək.

**Diaqram 16. Səhiyyə xərclərinin istiqamətlər üzrə bölgüsü (2022-2023-cü illər), *mln. manatla***




Gələn il *səhiyyə* funksional bölməsi üzrə bir sıra qurumların nəzdində fəaliyyət göstərən sağlamlıq müəssisələrinə də vəsait ayrılacaq. Məsələn, Daxili İşlər Nazirliyi 16,3 mln. manat, Fövqəladə Hallar Nazirliyi 8,989 mln. manat, Penitensiar Xidmət 12,4 mln. manat, Dövlət Gömrük Komitəsi 12,3 mln. manat, Dövlət Dəmir Yolları QSC 10,6 mln. manat səhiyyə xərci ala biləcək. Səhiyyə Nazirliyinə xəstəxanaların saxlanması xərlərindən savayı müxtəlif tədbir və proqramların maliyyələşdirilməsi üçün 179,3 mln. manat vəsait də ayrılması nəzərdə tutulur ki, bu əvvəlki maliyyə ilinə nisbətən 115,2 mln. manat (3 dəfəyə yaxın) çoxdur. Bu artımın əsas mənbəyi kimi dərman və sarğı materiallarının, habelə istehlak yönümlü müxtəlif xidmətlərin alınması göstərilir.

Konkret səhiyyə proqramlarına gəldikdə, şəkərli diabet üçün 52,8 mln. manat, 45,7 mln. manat onkoloji xəstəliklər, 42,7 xroniki böyrək çatışmazlığı, 23,7 mln. manat talassemiya xəstələri və s. üçün nəzərdə tutulub.

Əlavə olaraq, səhiyyə bölməsindən *sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi* maddəsi altında 90 mln. manat, *əmək ödənişi xərclərinin tənzimlənməsi* maddəsi altında 26,6 mln. manat vəsait nəzərdə tutulub.

Səhiyyə bölməsi üzrə xərlərin 189,3 mln. manatı əmək ödənişi xərclərindən ibarətdir (əvvəlki ilə nisbətən 37,3 mln. manat və 24,5% çox).

Nəhayət, büdcənin sosialyönümlü xərclərinin sonuncu istiqaməti mədəniyyət-incəsənət və idman tədbirlərinin maliyyələşdirilməsidir. 2023-cü ildə bu bölmə üzrə xərclər 561,7 mln. manat təşkil edəcək ki, bu əvvəlki maliyyə ilinin gözlənilən icrasına nisbətən 107,8 mln. manat (24%) çoxdur. Bölmə üzrə xərclərin 199,2 mln. manatı mədəniyyət və incəsənət sahəsinə, 61 mln. manatı mediaya dövlət dəstəyinə, 46,3 mln. manatı idman və gənclər sahəsinə, 255,2 mln. manatı isə mədəniyyət-incəsənət, media, idman və gənclər siyasətilə bağlı digər müəssisə və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Öz növbəsində, mədəniyyət və incəsənət sahəsilə bağlı xərclərin 61,3 mln. manatı kitabxanaların (ondan 8,2 mln. manatı M.F.Axundov ad. Milli Kitabxananın), 38 mln. manat muzey və sərgilərin saxlanmasına, 46 mln. manatı mədəniyyət sarayları və klubların, 49,3 mln. manatı isə teatr və musiqi kollektivlərinin saxlanmasına yönəldiləcək.

KİV-lərin maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsait əsasən 2 TV-nin, o cümlədən 21,6 manatı İctimai Televiziyanın, 36,1 mln. manatı isə Azərbaycan Dövlət Televiziyasının saxlanmasına sərf olunacaq.

Mədəniyyət-incəsənət, media, idman və gənclər siyasətilə bağlı digər müəssisə və tədbirlərin maliyyələşdirilməsilə bağlı xərclərdə diqqət çəkən, cəmiyyət üçün maraqlı ola biləcək olan bir sıra istiqamətlərə aşağıdakılar daxildir:

- Dünyanın nüfuzlu TV kanallarında və informasiya portallarnda Azərbaycan mədəniyyətinin təbliği, bu məqsədlə yaradıcılıq sahələrinin inkişafının dəstəklənməsi – 5 mln. manat;
- Mədəniyyət və yaradıcılıq sahəsində media platformasının yaradılması – 2 mln. manat;
- Diaspora Komitəsinin layihələrinin dəstəklənməsi – 6,6 mln. manat;
- Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəklənməsi – 12,1 mln. manat;
- Medianın İnkişafı Agentliyinə ayrılan subsidiya – 6,8 mln. manat;
- Heydər Əliyev Mərkəzinin fəaliyyətinin dəstəklənməsi – 12,7 mln. manat;
- QHT-lərə Dövlət Dəstəyi Agentliyinin fəaliyyəti üçün ayırma - 6,6 mln. manat;
- QHT-lərə maliyyə yardımı – 6,4 mln. manat;
- AzərTac Dövlət İnformasiya Agentliyinin fəaliyyətinin dəstəklənməsi – 9,3 mln. manat;
- Siyasi partiyalara maliyyə yardımı – 5 mln. manat

- Bakı Konqres Mərkəzinin fəaliyyətinin maliyyələşdirilməsi – 7,5 mln. manat;
- Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi – 8,9 mln. manat;
- Kino Agentliyinin fəaliyyəti üçün ayırma - 7 mln. manat;
- *2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə mədəniyyət-incəsənət, idman sahəsilə bağlı hədəflərin reallaşdırılması üçün – 47,5 mln. manat və s.

## İqtisadiyyatın dəstəklənməsi ilə bağlı xərclər

İqtisadi təyinatlı xərclər 5 müxtəlif funksional bölmədə cəmlənib: mənzil-kommunal təsərrüfatı, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, iqtisadi fəaliyyət və əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi.

Mənzil-kommunal sektoru üzrə 350,6 mln. manat proqnozlaşdırılır ki, bu da əvvəlki ilin gözlənilən icra göstəricisindən 82,7 mln. manat və ya 31% çoxdur. Bölmə üzrə xərclərin 68,2 mln manatı mənzil təsərrüfatı köməçi bölməsi çərçivəsində yaşayış binalarının əsaslə təmiri və lift təsərrüfatının subsidiyalaşdırlması məqsədilə yerli icra hakimiyyəti orqanlarına ayrılacaq. Öz növbəsində, yerli icra hakimiyyəti orqanlarına kommunal təsərrüfatı köməkçi bölməsi çərçivəsində işıqlandırma üçün 33,6 mln. manat, yaşıllaşdırma xidmətləri üçün 49,8 mln. manat vəsait ayrılması nəzərdə tutulur. Əlavə olaraq, köməkçi bölmə çərçivəsində Azəristiliktəchizat ASC üçün 41 mln. manat subsidiya ayrılacaq. Büdcə sənədlərində mənzil-kommunal funksional blməsi çərçivəsində yerdə qalan vəsaitlərin bəzi istiqamətlər və təşkilatlar üzrə bölgüsü aşağıdakı kimi əks olunub:

- *2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə təhsillə bağlı hədəflərin reallaşdırılması üçün 40,3 mln. manat.
- Azərsu ASC üçün 9,9 mln. manat;
- Qaçqın və məcburi köçkünlərin işlər üzrə Komitə üçün 3,150 mln. manat;
- Yerli icra hakimiyyətlərinə müxtəlif müəssisələrin subsidiyalaşdırılması üçün 44,9 mln. manat;
- İçərişəhər Dövlət qoruğu üçün 3,770 mln. manat;
- Kommunal və kommunikasiya xidmətləri çərçivəsində müxtəlif tədbirlər üçün 35 mln. manat:
- Dənizkənarı Bulvar İdarəsi üçün 12,9 mln. manat.

**Diaqram 17. Dövlət büdcəsindən iqtisadiyyatın dəstəklənməsilə bağlı ayrılan xərclərin sahələr üzrə bölgüsü, mln. manatla (2022-2023-cü illər)**




2023-cü ilin dövlət büdcəsində kənd təsərrüfatı üçün 1202 mln. manat nəzərdə tutulub ki, bu əvvəlki ilin gözlənilən icra göstəricindən 219.8 mln. manat (22,4%) çoxdur. Bölmə üzrə xərclərin yarısından bir qədər çoxu 625,2 mln. manatı fermerlərin subsidiyalaşdırılmasına sərf olunacaq. Öz növbəsində, bu xərclərin bilavasitə 180 milyon manatı müasir suvarma üsullarından istafadə edərək buğda əkən subyektlərə, 445,2 mln. manatı isə həm müxtəlif əkin növlərinə, həm də heyvandarlıq sektoru üzrə nəzərdə tutulan subsidiyaların ödənməsinə yönəldiləcək. Meliorasiya tədbirləri üçün 465,8 mln. manat nəzərdə tutulub.

Növbəti il ətraf mühitin mühafizəsi funksional bölməsinə dövlət büdcəsindən 371,5 mln. manat (əvvəlki ilə nisbətən 83,8 mln. manat və ya 29% çox) vəsait ayrılacaq. Bölmə üzrə xərclərin ən vacib istiqamətlərinə aşağıdakılar daxildir:

- Ərazilərin təmizlənməsi, çirkab suların toplanması və təmizlənməsi üçün – 295,2 mln. manat. Bu vəsaitin 9,5 mln. manatı Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsi, 37,5 mln. manatı Təmiz Şəhər ASC, 243,5 mln. manatı yerli icra hakimiyyəti orqanları vasitəsilə xərclənəcək.
- Meşə təsərrüfatı üçün - 15,5 mln. manat;
- Dövlət Əmlak Xidməti vasitəsilə torpaq və yerquruluşu tədbirləri – 14,8 mln. manat;
- Milli Hidrometerologiya Xidmətinin fəaliyyəti üçün- 9,5 mln. manat;
- Dövlət təbiət qoruqlarında və milli parklarda mühafizənin təşkili və elmi-tədqiqatların aparılması -7,8 mln. manat və s.

2023-cü ildə iqtisadi fəaliyyət funksional bölməsi üzə 6891 mln. manat vəsait proqnozlaşdırılır (2022-ci ilin gözlənilən icra göstəricisilə müqayisədə 101 mln. manat və ya 1,5% çoxdur). Bölmə üzrə xərclərin əhatə dairəsi kifayət qədər genişdir, lakin əhəmiyyətli hissəsi tikinti xərcləri təşkil edir. Belə ki, bu xərclərdən 5652 mln. manatını, o cümlədən 3000 mln. manatı işğaldan azad edilmiş ərazilərin bərpası, 2652 mln. manatını isə digər ərazilər və istiqamətlər üzrə investisiya xərcləri təşkil edəcək. İqtisadi fəaliyyət funksional bölməsi üzə yerdə qalan təxminən 1,2 mlrd. manat vəsaitin xərclənmə istiqaməti aşağıdakı kimi müəyyən olunub:

- Avtomobil yolları və avtomobil nəqliyyatı üçün 66,4 mln.manat, o cümlədən Ekologiya Nazirliyinə 13,8 mln. manat, Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinə 1,5 mln. manat, yerli icra hakimiyyətlərinə 51,1 mln. manat;
- Bəzi dövlət şirkətlərinə subsidiyalara 7,8 mln. manat, o cümlədən Bakı Nəqliyyat Agentliyi üçün 31,2 mln. manat, Yerüstü Nəqliyyat Agentliyi üçün 6 mln. manat, AzAL üçün 10 mln. manat, Bakı Metropoloteni üçün 56,9 mln. manat, Azərkosmos üçün 18 mln. manat, Dövlət Dəniz və Liman Agentliyi üçün 6,2 mln. manat;
- *2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası* üzrə rabitə və nəqliyyat sektoru üzrə 46,7 mln. manat;
- Kommunal və kommunikasiya xidmətlərilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 100 mln. manat;
- Nəqliyyat və rabitə sahəsidə islahatların maliyyələşdirilməsi üçün 24 mln. manat;

Bölmə üzrə xərclərin yönəldiyi digər istiqamət iqtisadi və kommersiya fəaliyyətidir ki, həmin fəaliyyətlərə 56 mln. manat xərclənməsi nəzərdə tutulur. Öz növbəsində, bu xərclərin 12 mln. manatı Şahdağ Turizm Mərkəzinin zərərinin qarşılanmasına 43,9 mln. manatı isə turizm sektorunun dəstəklənməsinə sərf olunacaq. Turizmə dəstək xərclərinin 25 mln. manat ölkənin turizm potensialının genişləndirilməsi üçün marketinq və kommersiya planının icrası, 3,5 mln. manatı isə xarici populyar televeziyalarda ölkənin turizm potensialının təbliği üçün nəzərdə tutulub.

Nəhayət, iqtisadi fəaliyyət funksional bölməsi üzrə xərclərin sonuncu istiqaməti *iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər* köməkçi bölməsi çərçivəsində maliyyələşdirilən fəaliyyətlərdir. Həmin xərclərdən diqqətçəkən istiqamətlər kimi aşağıdakıları qeyd etmək olar:

- Dövlət Neft Şirkəti üçün 330 mln. manat;
- Xaricdəki diplomatik korpuslarda ticarət nümayəndəliklərinin fəaliyyəti üçün 6 mln. manat;
- Yeni nəsil şəxsiyyət vəsiqələrinin və biometrik pasportların hazırlanması üçün 52,5 mln. manat;
- İpoteka və Kredit Zəmanəti Fondu üçün 100 mln. manat;

- Kiçik və Orta Biznesin İnkişafı Agentliyi 20 mln. manat;
- Qeyri-neft ixracının təşviqi üçün 13,3 mln. manat;
- *2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası*nda nəzərdə tutulmuş sosial tədbirlərin maliyyələşdirilməsi üçün 19,1 mln. manat;
- Azad İqtisadi Zonasının səlahiyyətli orqanı üçün 10,3 mln. manat;
- İxracın və investisiyaların təşviqi Agentliyi (AZPROMO) üçün 6 mln. manat;
- İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi üçün 7 mln. manat;
- Qida Təhlükəsizliyi İnstitutu üçün 10 mln. manat;
- *Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti* publik hüquqi şəxsi üçün 11 mln. manat;
- Şərqi Zəngəzur iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsi üçün 6 mln. manat.

Dövlət büdcəsinin sonuncu funksional bölməsi olan *əsas bölmələrə aid edilməyən xidmətlər* bölməsi üzrə gələn il 1328 mln. manat xərclənəcək ki, bu əvvəlki ilin gözlənilən icra göstəricindən 597 mln. manat və ya 31% azdır. Bölmə üzrə xərclərin 110 mln. manatı Nazirlər Kabinetinin Ehtiyatı Fondu, 500 mln. manatı Prezidentin Ehtiyatı Fondu, 348,9 mln. manatı məqsədli büdcə fondları üçün nəzərdə tutulub. Bundan əlavə, bölmə xərcləri çərçivəsində fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün 20 mln. manat, yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsi üçün 12,1 mln. manat, dövlət ehtiyatlarının yaradılması üçün 40 mln. manat, yaşayış məntəqələrilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi üçün 30 mln. manat nəzərdə tutulub.

## 2023-cü il dövlət büdcəsi xərclərinin iqtisadi strukturu

Gələn il üzrə dövlət büdcəsinin iqtisadi sturukturunda ən yüksək pay qeyri-maliyyə aktivlərinin alınması xərclərinə aid olacaq. Bu xərclər əsasən büdcə investisiyaları və əsaslı xərclər vasitəsilə bina və tikililərin qurulması, maşın və avadanlıqların alınması, daha dəqiq deyilsə, büdcə hesabına iqtidadiyyat üçün əsas fondların yaradılması üçün xərclərdir. 2023-cü ildə bu məqsəd üçün xərclər 9599,1 mln. manat təşkil edəcək ki, bu proqnozlaşdırılan ümumi büdcə xərclərinin 28,8%-nə bərabərdir.

**Diaqram 18. Büdcə xərclərinin iqtisadi təsnifatı, xərc maddələri üzrə manatla (2022-2023)**




İqtisadi xərc strukturunda yüksək paya malik digər istiqamət əmək ödənişi xərcləridir. Bu maddə üzrə xərclərin məbləği 8478,7 mln. manat təşkil edəcək və bu proqnozlaşdırılan ümumi büdcə xərclərinin 25,4%-i qədərdir. 2023-cü ildə dövlət büdcəsindən sosial ödənişlərə 4065,5 mln. manat, istehlak yönümlü müxtəlif xidmətlərə 2244 mln. manat, hüquqi şəxslər üçün subsidiyalara 1762,8 mln. manat, borc öhdəliklərinə 318,5 mln. manat, faiz ödənişlərinə 685,6 mln. manat, qrantlara 507,6 mln. manat, kommunal xidmət haqlarının ödənməsinə 467,9 mln. manat, ərzaq məhsullarının alınmasına 452,6 mln. manat xərclənəcək.

# Büdcədənkənar fondlar

Azərbaycan Respublikasının büdcə sistemini formalaşdıran institutlardan biri də büdcədənkənar dövlət fondlarıdır. *Büdcə sistemi haqqında* Qanuna görə, **büdcədənkənar dövlət fondları** dövlət tərəfindən hüquqi şəxs qismində *və (və ya) hüquqi şəxs yaratmadan* təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə *və ya pul vəsaitlərinə* malik olan məqsədli dövlət maliyyə fondlarıdır[1].

Ölkənin icmal büdcəsinin gəlir və xərcləri tərtib edilərkən büdcədənkənar dövlət fondlarının gəlir və xərcləri də nəzərə alınır. Büdəcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri hər il büdcə zərfi daxilində Milli Məclisin müzakirəsinə təqdim edilir və digər sənədlər birlikdə qəbul edilir. Yeganə olaraq Dövlət Neft Fondunun illik büdcəsi parlament müzakirəsindən kənar birbaşa ölkə prezidenti tərəfindən təsdiqlənir.

Dövlət büdcəsində olduğu kimi büdcədənkənar dövlət fondlarının da auditi *Hesablama Palatası* haqqında Qanuna uyğun olaraq Hesablama Palatası tərəfindən aparılır. Qanunvericiliyə görə, büdcədənkənar dövlət fondları ölkədaxili kommersiya fəaliyyətinə sərmayələr qoymur, kreditlər və borc zəmanətləri vermirlər. Büdcədənkənar dövlət fondlarının vəsaiti təyinatı üzrə istifadə olunmalıdır və onların başqa məqsədlər üçün xərclənməsinə yol verilmir.

Hazırda 4 büdcədənkənar dövlət fondu var: **1)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu; **2)** Dövlət Sosial Müdafiə Fondu; **3)** İşsizlikdən Sığorta Fondu; **4)** İcbari Tibbi Sığorta Fondu

## Dövlət Neft Fondu

2023-cü ildə Dövlət Neft Fondunun gəlirləri 8991 milyon manat proqnozlaşdırılıb. Bu, 2022-ci ilin proqnoz büdcəsi ilə müqayisədə 6798,2 milyon manat və ya 75,6% azdır. 2022-ci ildə Neft Fondunun gəlirləri 15789.2 milyon manat proqnozlaşdırılıb. ***(Diaqram 18)***

**Diaqram 19. ARDNF-nin ümumi gəlir və xərclərinin dəyişməsi (milyon manat)**




[1] https://e-qanun.az/framework/1126

Əvvəlki illərdə olduğu kimi Fondun gəlirlərinin əsas mənbəyini *Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər*[2] təşkil edəcək. Bu mənbə üzrə daxilolmanın həcmi 6571,4 milyon manat proqnozlaşdırılıb ki, bu da 2022-ci ilin proqnoz göstəricilərindən 8422 milyon manat və ya 56,2% azdır. Bununla da bu mənbə üzrə daxilolmaların ümumi büdcə gəlirlərində payı 95%-dən 73,1%-ə düşüb. Azalmanın səbəbi Azəri-Çıraq-Günəşli yatağında hasilatın aşağı düşməsidir. 2023-cü ildə bu yataqda xam neft hasilatının həcmi 129,6 milyon barel həcmində proqnozlaşdırılıb. Bu, 2022-ci ilin göstəricisinə (153,1 milyon barel) nisbətən 23,5 milyon barel azdır. Proqnoz göstəricilərinə əsasən, azalma tendensiyasının növbəti illərdə də davam etməsi gözlənilir. Şahdəniz yatağı üzrə qaz hasilatının həcmi 1,5 mlrd. kub metr çox nəzərdə tutulub. Eyni zamanda büdcədə xam neftin satış qiyməti 50 ABŞ dolları həcmində müəyyənləşib. 2022-ci il üçün Fondun büdcəsinin baza göstəricisi olan 1 barel neftin orta illik ixrac qiyməti ilkin olaraq 50 ABŞ dolları səviyyəsində götürülsə də, ilin ortasında 70 ABŞ dollarına qaldırılıb. 2022-ci ilin 9 ayı ərzində xam neftin xalis mədaxil qiyməti 100,8 ABŞ dolları təşkil edib.[3]

*Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən ödənilən akrhesabı ödənişlər üzrə gəlirlər* əvvəlki illə müqayisədə 1 milyon manat və ya 23,3% az nəzərdə tutulub. Bu mənbə üzrə azalmanın səbəbi 2022-ci ildə Əşrəfi-Dan Ulduzu-Aypara sahəsi üzrə akrhesab ödənişlərin və Abşeron yarımadası ətrafında dayazsulu sahəsi üzrə 113 $km^2$ ərazidə kəşfiyyat işinin növbəti ildə aparılmasının nəzərdə tutulmaması ilə bağlı olub[4].

Əvvəlki maddələrdən fərqli olaraq neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlərin proqnozu 1,8 milyon manat və ya 8,4% artırılaraq 23,6 milyon manata çatdırılıb. 2023-cü ildə tranzit haqqı üzrə gəlirlərin artması növbəti il üzrə boru tarifinin inflyasiya faktoru nəzərə alınmaqla artması ilə izah edilir.

*Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar* üzrə mədaxilin həcmi 800,8 milyon manat təşkil edəcək ki, bu da 2022-ci ilin proqnoz göstəricisindən 32,1 milyon manat və ya 4,4%, çoxdur. Artıma səbəb əvvəlki illərdə nəzərdə tutulmayan, ancaq gələn il birdəfəlik xarakter daşıyan Abşeron dəniz bloku üzrə bonus ödənişlərinin (20,8 milyon ABŞ dolları) proqnozlaşdırılmasıdır. Bonuslar üzrə mədaxilin ümumi büdcə gəlirlərində payı 4,9%-dən 8,9%-ə yüksəlib.

2023-cü ildə *Dövlət Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə ediləcək gəlirlər* Fondun büdcə gəlirlərinin formalaşmasında ikinci ən böyük paya (17,7%) malik olan mənbədir. Bu

[2] Karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla.
[3] Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi - https://sai.gov.az/rey/106
[4] Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi - https://sai.gov.az/rey/106

gəlirlərin həcmi 1590,9 milyon manat proqnozlaşdırılıb. 2022-ci ildə Dövlət Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər ilkin olaraq 1216,8 milyon manat proqnozlaşdırılsa da dünya əmtəə bazarında baş verən proseslər fonunda ölkə prezidentinin 22 iyul 2022-ci il tarixli Fərmanı[5] ilə bu mənbə üzrə mədaxilin proqnozu 0-a endirilmişdi. Hesablama Palatasının rəyində[6] qeyd edilir ki, Fond tərəfindən təqdim edilmiş 2022-ci ilin 9 aylıq icra göstəricilərinə əsasən, vəsaitlərin idarə olunmasından 4521 milyon manat məbləğində zərər yaranıb.

2023-cü ildə Neft Fondun xərcləri 11392,3 milyon manat proqnozlaşdırılıb ki, bu da 2022-ci ilin proqnoz göstəricisindən 204,8 milyon manat və ya 1,8% azdır. ***(Diaqram 18)***

Fondun illik xərclərinin azaldılması *dövlət büdcəsinə ediləcək transfertin həcmi*nin azalması ilə bağlıdır. 2023-cü ildə dövlət büdcəsinə 11280 milyon manat həcmində vəsait köçürüləcək ki, bu da 2022-ci ilin göstəricisindən 237,5 milyon manat və ya 2,1% azdır. Bir qayda olaraq Fondun xərclərinin təxminən 99%-i bu istiqamətə yönəldilir.

Dövlət büdcəsinə transfertdən fərqli olaraq Fondun digər 3 xərc maddələrinin hər birində əvvəlki illə müqayisədə artım nəzərdə tutulub.

*2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramının icrası* ilə bağlı xərclər əvvəlki illə müqayisədə 10,7 milyon manat və ya 38,5% artırılaraq 38,5 milyon manata çatdırılıb. Artımın səbəbi doktorantura səviyyəsi üzrə təhsil, ikili diplom proqramı və Dövlət Proqramının İdarəetmə Qrupunun maliyyələşdirilməsi xərclərinin artırılması olub. Bu məbləğin 11,37 milyon manatı xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsinə, 26,4 milyon manatı ikili diplom proqramlarının maliyyələşdirilməsinə, 747 min manatı Dövlət Proqramının İdarəetmə Qrupunun 2023-cü ildə illik saxlanma xərcinin maliyyələşdirilməsinə yönəldiləcək[7].

*Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət proqramının maliyyələşdirilməsi* xərcləri 2 dəfədən çox artırılıb və 36,7 milyon manat nəzərdə tutulub. Artım Dövlət Proqramı çərçivəsində növbəti il daha çox gəncin təhsil almasına şəraitin yaradılması ilə əlaqədardır. Belə ki, ölkə prezidentinin 28.02.2022-ci il tarixli 3163 saylı Sərəncamı ilə *Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı* təsdiq edilib. Həmin Proqramla hər il 400 nəfər 15 prioritet ixtisas sahəsi üzrə təhsil müəssisələrində bakalavriat və əsas etibarı ilə magistratura səviyyələrində təhsil almaq imkanı qazanacaq.

[5] https://e-qanun.az/framework/50017
[6] Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi - https://sai.gov.az/rey/106
[7] Hesablama Palatasının Dövlət sosial müdafiə fondunun 2023-cü il üçün büdcə layihəsinə rəyi - https://sai.gov.az/rey/103

*Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər* 9,1% artıb. Növbəti il bu istiqamətə 37.1 milyon manat yönəldilməsi nəzərdə tutulub. Artım Fondun investisiya fəaliyyəti ilə bağlı xərclərinin artırılması və informasiya texnologiyaları üzrə infrastrukturun yenilənməsi ilə əlaqələndirilir.

2023-cü ildə Neft Fondunun gəlirlərinin 2022-ci illə müqayisədə kəskin (75,6%) azalması fonunda xərclərin azalması cüzi (1,8%) olub. Buna görə də 2022-ci ildə 4192.1 milyon manatlıq profisit nəzərə tutulduğu halda 2023-cü ildə 2401,3 milyon manatlıq kəsir gözlənilir.

## Dövlət Sosial Müdafiə Fondu (DSMF)

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2023-ci il üzrə gəlirləri və xərcləri bərabər məbləğdə olmaqla 6264 milyon manat proqnozlaşdırılıb. Bu, 2022-ci ilin proqnoz göstəricisindən 657,7 milyon manat və ya 11,7% çoxdur. ***(Diaqram 19)***

**Diaqram 20. 2023-cü il üzrə DSMF-nin ümumi gəlir və xərcləri (milyon manat)**




DSMF-nin büdcə gəlirlərinin artması *məcburi dövlət sosial sığorta haqlarının* və *dövlət büdcəsindən ayırmaların* artımı hesabına baş verəcək. Artımın 45,2%-i *məcburi dövlət sosial sığorta haqlarının,* 54,8%-i isə *dövlət büdcəsindən ayırmaların* payına düşür.

Büdcə gəlirlərinin 23,4%-i m*əcburi dövlət sosial sığorta haqları üzrə yığımların* payına düşür. Bu mənbə üzrə mədaxilin həcmi 421,9 milyon manat və 9,8% artırılaraq 4783,6 milyon manata çatdırılıb. Artım həm büdcədən maliyyələşən təşkilatlardan, həm də qeyri-büdcə təşkilatlarından ayrılan yığımlar üzrə olacaq. Büdcədən maliyyələşən təşkilatlardan yığımların artım tempi (12,5%) qeyri-büdcə təşkilatlarından yığımların artım tempini (5.2%) üstələyir. 2023-cü ildə DSMF-nin büdcəsinə bu mənbələr üzrə uyğun olaraq 3000,5 milyon manat və 1783,1 milyon manat məbləğində vəsait daxil olacaq.

**Diaqram 21. 2023-cü il üzrə DSMF-nin büdcə gəlirlərinin strukturu**




2023-cü ildə *DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən* 1467,8 milyon manat həcmində vəsait ayrılacaq. Bu, 2022-ci ilin proqnoz göstəricilərindən 235,8 milyon manat və ya 19,1% çoxdur.

Növbəti ildə Fondun ümumi xərclərinin 97%-i *əhaliyə ödənişlər* üzrə, 0,4%-i *sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırılması tədbirləri* üzrə, 1%-i *DOST Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi və pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqqı* üzrə, 1,6%-i isə *Fondun aparatının və onun yerli orqanlarının saxlanılması* üzrə xərclərinin maliyyələşdirilməsinə yönəldilməsi proqnozlaşdırılır.

**Diaqram 22. 2023-cü il üzrə DSMF-nin büdcə xərclərinin istiqamətləri (milyon manat)**




Fond 2023-cü ildə *əhaliyə ödənişlər* üçün 6077,6 milyon manat vəsait ayrılacaq. *Əhaliyə ödənişlər* 2022-ci illə müqayisədə 646,4 milyon manat və ya 11,9% çox olacaq. Artım əmək pensiyalarına ödəniləcək vəsaitin artırılması hesabına yaranıb. Belə ki, *əməyin ödənilməsi xərcləri* əvvəlki illə müqayisədə 650,2 milyon manat və ya 12,4% artırılaraq 5907,2 milyon manata çatdırılıb.

*Məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri* isə 3,8 milyon manat və ya 3,2% azaldılaraq 170,4 milyon manata endirilib.

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər* 22,5 milyon manat proqnozlaşdırılıb ki, 2022-ci ilin göstəricisindən 1 milyon manat çoxdur.

Gələn il *DOST Agentliyinə köçürələcək vəsait ilə pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları* 60,5 milyon manat nəzərdə tutulub. Bu istiqamətdə gərclər 10,5 milyon manat artırılıb. DOST Agentliyi üzrə xərclərin artımı 2023-cü ilin yanvar ayında Şuşa şəhərində, iyul ayında Ağcabədi, Yevlax, Neftçala, Beyləqan rayonlarında və Şirvan şəhərində, dekabr ayında isə Quba, Sabirabad, Gəncə, Ağdam, İmişli, Saatlı, Şabran, Siyəzən rayonlarında və Sumqayıt şəhərində yeni mərkəzlərin açılmasının nəzərdə tutulması ilə bağlıdır[8].

Növbəti ildə *Fondun Aparatının və yerli orqanlarının saxlanılması üzrə xərc* 102,7 milyon manat həddində proqnozlaşdırılır ki, bu da 2022-ci ilin proqnoz göstəricisindən 0,2 milyon manat və ya 0,2% azdır.

## İşsizlikdən Sığorta Fondu

İşsizlikdən Sığorta Fondunun 2023-cü ildə büdcəsinin gəlir və xərcləri bərabər həcmdə olmaqla 212,7 milyon manat nəzərdə tutulub ki, bu da 2022-ci ilin proqnoz göstəricisindən 31,3 milyon manat və ya 17,3% çoxdur.

**Diaqram 23. 2023-cü il üzrə İSF-nin ümumi gəlir və xərcləri (milyon manat)**




Fondun büdcəsi 3 mənbə hesabına formalaşacaq. Gəlirlərin 75%-i *işsizlikdən sığorta üzrə sığorta haqlarının*, 24,9%-i *2022-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitin*in, 0,1%-i isə *sair gəlirlərin* hesabına formalaşacaq.

[8] Hesablama Palatasının Dövlət sosial müdafiə fondunun 2023-cü il üçün büdcə layihəsinə rəyi - https://sai.gov.az/rey/103

*İşsizlikdən sığorta üzrə sığorta haqlarının* mədaxili 159,6 milyon manat məbləğində proqnozlaşdırılıb. Bu, 2022-ci ilin proqnoz göstəricisindən 16,3 milyon manat və ya 11,3% çoxdur. Artım həm büdcə, həm də qeyri-büdcə sektoru üzrə gözlənilir. *Büdcədən maliyyələşən təşkilatlar və orada işləyənlər* üzrə mədaxil 8,8% artırılmaqla 22,4 milyon manat nəzərdə tutulub. *Qeyri-büdcə sektoru* üzrə isə 12,6% artım proqnozlaşdırılıb. Növbəti il bu mənbədən 114,7 milyon manat daxil olması gözlənilir.

Büdcə gəlirlərinin mənbələrində olan *sair gəlirlər* bölməsi üzrə mədaxilin proqnozu 20% artırılaraq 60 min manata çatdırılıb.

Fondun büdcəsinin gəlir mənbələrindən biri də *əvvəlki illərdə istifadə etmədiyi vəsaitdir*. 2023-cü ildə Fondun *istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ* 39,7% artırılıb və 53 milyon manat həcmində proqnozlaşdırılıb. Hesablama Palatasının rəyində[9] qeyd edilir ki, 2023-cü ildə Fondun gəlirlərinin formalaşmasında əvvəlki illə müqayisədə istifadə olunmamış vəsaitin həcminin yüksək olması, həm işsizlikdən sığorta haqqı kimi daxilolmaların artım dinamikasına malik olması, həm də *İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında* Qanununun xərclər bölməsində nəzərdə tutulmuş müəyyən istiqamətlər üzrə vəsaitin xərc edilməməsi və bəzi xərc maddələri üzrə icra səviyyəsinin aşağı olması ilə bağlıdır.

Fondun xərclərinə gəlincə, onun 57,3%-ni *əhalinin məşğulluğunun təmin edilməsi* ilə bağlı tədbirlər, 5,2%-ni *işsizliyə görə sığorta ödənişləri*, 21%-ni *Dövlət Məşğulluq Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələlər üzrə Milli Observatoriyanın saxlanılması*, 16,5%-i isə *Dayanıqlı və Operativ Sosial Təminat Agentliyininin sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi* xərcləri təşkil edəcəkdir.

Növbəti ildə *əhalinin məşğulluğunun təmin edilməsi xərcləri* 133 milyon manat təşkil edəcəkdir ki, bu da 2022-ci ilin proqnoz göstəricisindən 25,4 milyon manat və ya 23,6% çoxdur.

Ümumilikdə götürdükdə 13 xərc istiqamətinin 6-sında 2022-ci illə müqayisədə dəyişiklik olmayıb. Bu fəaliyyət istiqamətlərinə peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi, haqqı ödənilən ictimai işlərin təşkili, peşə standartlarının hazırlanması, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin yaradılması və qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər daxildir.

İki fəaliyyət istiqamətində azalma nəzərdə tutulub. *Əmək yarmarkalarının, əmək birjalarının təşkili* ilə bağlı xərclər yarıbayarı azaldılaraq 0,5 milyon manata, *sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi* xərcləri isə 33,3% azaldılaraq 2 milyon manata endirilib.

[9] Hesablama Palatasının İşsizlikdə Sığorta Fondunun 2023-cü il üçün büdcə layihəsinə rəyi - https://sai.gov.az/rey/102

Digər xərc istiqamətlərində artım nəzərdə tutulub. Ən çox artım (144,4%) *peşə hazırlığı və əlavə təhsilin təşkili* xərclərində baş verəcək. Bu istiqamətdə 22 milyon manatın xərclənməsi planlaşdırılır. *İşsizliyə görə sığorta ödənişlərinə* əvvəlki illə müqayisədə 29,4% çox – 11 milyon manat ayrılacaq. *Özünüməşğulluq tədbirlərinin təşkili* xərcləri 15% artırılaraq 87,5 milyon manata çatdırılıb.

2023-cü ildə *Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının və Əmək bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılmasına* 44,7 milyon manat (artım 2,1%), *DOST Agentliyinin sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsinə* isə 35 milyon manat (artım 16,7%) xərclənəcək. *DOST* Agentliyi üzrə xərclərin əhəmiyyətli artımı 2023-cü ilin yanvar ayında Şuşa şəhərində, iyul ayında - Ağcabədi, Yevlax, Şirvan, Neftçala və Beyləqan, dekabr ayında isə Quba, Sumqayıt, Sabirabad, Gəncə, Ağdam, İmişli, Saatlı, Şabran və Siyəzən şəhərlərində yeni mərkəzlərinin açılmasının nəzərdə tutulması ilə bağlıdır.

## İcbari Tibbi Sığorta Fondu

*Büdcə sistemi haqqında* qanuna təklif edilmiş dəyişikliklə yeni büdcədənkənar dövlət fondunun - İcbari Tibbi Sığorta Fondunun yaradılması nəzərdə tutulur. Elə bu məqsədlə 2023-cü ilin icmal büdcəsi hesablanarkən İcbari Tibbi Sığorta üzrə Dövlət Fondunun gəlir və xərcləri nəzərə alınıb. Fondun gəlir və xərcləri bərabər olmaqla 2393,2 milyon manat proqnozlaşdırılıb.

Fondun əsas gəlir mənbəyini *dövlət büdcəsindən ediləcək transfertlər* təşkil edəcək. 2023-cü ildə transfertin həcmi 1263,8 milyon manat həcmində olacaq. Bu vəsaitin 1134.1 milyon manatı *əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanmasına*, 129,7 milyon manatı isə *səhiyyə sahəsində dövlət proqramları və tədbirlərə* yönəldiləcək.

2022-ci ildə *əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması xərcləri və səhiyyə sahəsində bir sıra dövlət proqramlarının və tədbirlərin maliyyə təminatına* 1125,7 milyon manat həcmində vəsait ayrılması proqnozlaşdırılmışdı.